# Bir Buse Zekat Eyle Tez Ol ki Yubandırma

— *faramarz-abdollahpur* · 14 Mart 2024



Bir busə zəkat eylə tez ol ki yubandırma
Sal birqəni çehrondan imanımı yandırma

Mehrun oturub canə ey dilbəre simintən
Bir hən deginən qurtar bir beylə dolandırma

Mən motərefe eşqəm könlum sənə dilbəstə
Nazın çoxadıp bari ğəmzeylə otandırma

Cadu baxışın salmış bir yerli məni dildən
Boş vəədə verip tez tez mən yazığı andırma

Dur gəl yanıma ani ey izzu şərəf kani
Şəffaf sözun söylə bir beylə bulandırma

Dərdin nədir ey məhru xəndan ləbu meşkin mu
Sirrin eləyip pinhan bir beylə çulandırma

Təqdire qəza yazmış mənlə səni bir həmdəm

Qaç gəl yanıma indi bir beylə tolandırma

Əlin əlimə yünlət ta ki açıla cənnət
Ver fakiheye rizvan ağzımı sulandırma

Canan yetişə canə ba zovqe səlimanə
Cənnət qapısı açqın gəl gəl bəri qaç durma